

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 124 (24.261)

14 iyul 2023-cü il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Prezident İlham Əliyev İsrailin müdafiə nazirini qəbul edib



İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul edib.

Yoav Qallant İsrailin Baş naziri Benyamin Netanyahunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrailin Baş nazirinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə İsrailin müdafiə naziri arasında bu il Münxendə keçirilən görüş xatırlandı.

İkitərəfli münasibətlərin inkişafından, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıqdan məmnunluq ifadə edildi. İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolu qeyd olundu.

Görüşdə Azərbaycanın İsraildə səfirliyinin açılmasının əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı.

**AZƏRTAC**

## Naxçıvanda 192 mənzillik yeni yaşayış kompleksi istifadəyə verilib





İyulun 13-də Naxçıvan şəhərində yeni "Ümid" yaşayış kompleksi istifadəyə verilib.

Açılış tədbirində qonaqları salamlayan "Cahan Holdinq"in prezidenti, Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov bildirib ki, yaşayış kompleksinin ümumi sahəsi 22 min 325 kvadratmetrdir.



Şəhərcikdəki 9 mərtəbəli 4 yaşayış binasında 192 mənzil vardır. Mənzillərdən biri şəhid ailəsinə hədiyyə edilib, 72-si isə ipoteka krediti ilə satılıb. Vüqar Abbasov vurğulayıb ki, kompleksdə ortaaylıq əməkhaqqı 600 manat olan 10 yeni iş yeri açılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yeni kompleksin açılışı münasibətilə təbriklərini çatdıraraq bildirib ki, Prezident cənab İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" həm Naxçıvan şəhərinin, həm də muxtar respublikanın bütün rayon və kəndlərinin inkişafına təkan verəcək. Dövlət Proqramının icrası çərçivəsində yaşayış komplekslərinin, sosial yönümlü obyektlərin müasir memarlığın tələblərinə uyğun şəkildə tikintisi davam etdiriləcək. Naxçıvan Dövlət Xalça Muzeyi üçün yeni binanın, 1000 yerlik yeni məktəb binasının inşasının planlaşdırıldığını, Naxçıvan və Ordubad şəhərlərinin tarixi hissəsinin yenidən qurulacağını diqqətə çatdıran səlahiyyətli nümayəndə bildirib ki, Naxçıvanda Qızlar Bulağı, Əcəmi Seyrəngahı, Möminə xatın türbəsi, Mərkəzi Bazar və Bazarçay gölünün ətrafında da yeni layihə ilə işlər aparılacaq.

"Ordubad şəhəri "1 küçə-1 ölkə" konsepsiyası ilə yenidən qurulacaq, Ordubad şəhərindəki tarixi "Sahil" mehmanxanası yenidən inşa olunacaq, Ordubad şəhərinin Sərşəhər məhəlləsi orijinallığı saxlanılmaqla bərpa ediləcək", – deyə Fuad Nəcəfli bildirib. Əhalinin nisbətən azgəlirli təbəqəsi üçün iş yerlərinin açılması istiqamətində tədbirlərin görüləcəyini vurğulayan səlahiyyətli nümayəndə, Əliabad qəsəbəsində 3000 mənzillik yeni yaşayış kompleksi layihəsinin hazırlandığını və yaxın zamanda bu layihənin icra olunacağını vurğulayıb.

Səlahiyyətli nümayəndə Naxçıvanda indiyə qədər aparılan tikinti işlərində nöqsanlara yol verildiyini, əhalinin mülkiyyət hüququnun pozulduğunu, aparılan tikinti işlərində funksionallıq və memarlıq işinin lazımi səviyyədə olmadığını diqqətə çatdırıb. Bildirib ki, bu gün hazırlanan yeni layihələr isə elmi yanaşma və qanunvericiliyin tələblərinə əsaslanır: "Təəssüf ki, muxtar respublikada Naxçıvan şəhərindən başqa heç bir şəhərin baş planı yoxdur. Naxçıvan şəhərinin baş planı 1984-cü ildə hazırlanıb. Baş planda isə həmin ildən indiki dövrə qədər şəhərdə baş verən inkişafla



bağlı heç bir qeydiyyat aparılmayıb. Zərurət nəzərə alınaraq muxtar respublikanın bütün şəhərlərinin baş planları hazırlanacaq".

Babək rayonunun Hacıvar kənd tam orta məktəbinin yeni inşa olunmasına baxmayaraq, layihəsinin tamamilə yararsız olduğunu, texniki-tikinti normalarının kobud şəkildə pozulduğunu, bu səbəbdən də binanın söküldüyünü bildirən səlahiyyətli nümayəndə Hacıvar kənd tam orta məktəbinin müasir üslubda yenidən inşa olunacağını vurğulayıb.

Çıxışlardan sonra şəhid kapitan Elməddin Meydanovun ailəsinə və digər mənzil sahiblərinə mənzillərin orderləri təqdim olunub.

Şəhid ailəsi ilə görüş zamanı "Şəhid ailələri başımızın tacıdır, sizlər üçün nə etsək azdır", – deyən Fuad Nəcəfli dövlətin hər zaman şəhid ailələrinin, qazilərin yanında olduğunu bildirib.

Daha sonra kompleksə tanışlıq olub.

Tanışlıq zamanı bildirilib ki, binaların hər mərtəbəsində sahəsi 95 və 96 kvadratmetr olan 4-ü üçotaqlı, sahəsi 82 kvadratmetr olan 2-si ikiotaqlı olmaqla, 6 mənzil vardır. Bütün binalar sürətli liftlərlə təmin olunub. Həmçinin kompleksdə müasir işıqlandırma, mərkəzi nəzarət videokamera sistemi, 2 ədəd 650 kilovoltamper gücündə transformator, mərkəzi havalandırma sistemləri qurulub. Yanğından mühafizə üçün 500 kubmetrlik, tələbatı ödəmək üçün 250 kubmetrlik iki su anbarı tikilib. Bildirilib ki, yaşayış kompleksində 8460 kvadratmetr ərazi abadlaşdırılıb, sakinlər üçün istirahət parkı, uşaqlar üçün əyləncə parkı yaradılıb. İnşa olunan mənzillər ipoteka və sərbəst satışlarla əhalinin xidmətindədir. Qeyd olunub ki, daxili imkanlar hesabına 32 ailəyə birillik faizsiz daxili kredit, 29 ailəyə isə üçillik daxili kredit verilərək gənc ailələr mənzillə təmin olunub.

**"Şərq qapısı"**



# Heydər Əliyev İli

100



## 1969-cu il 14 iyul – milli qurtuluşa, inkişafa, Böyük Qələbəyə doğru yolun başlanğıcı...

*“Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur... Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir...”*

***“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından***

Yüzillik yubileyini möhtəşəm şəkildə qeyd etdiyimiz Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyulunu müstəqil, qüdrətli Azərbaycan dövlətinin qazandığı bütün uğurların, nailiyyətlərin, müasir dövlətçilik yolunda parlaq səhifələrin yazıldığı təməl tarix kimi daim böyük qürur və fəxarət hissi ilə xatırlayır, əziz tuturuq. Həmin gün həm də xalqımızın yad ünsürlərin təsirindən xilas olaraq öz milli kimliyinə, mənəvi dəyərlərinə qayıdışının başlanğıcı hesab olunur. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamında da deyildiyi kimi, *“Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur... Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir”.*

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın sosial-iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanıb. Dahi şəxsiyyət hakimiyyətə gəlişi ilə milli düşüncəni oyadıb, illər sonra qurulacaq müstəqil Azərbaycanın potensial bazasını yaradıb. Həmin zaman kəsiyi tamamilə fərqli şərtlərin diktə olunduğu dövr olsa da, dahi şəxsiyyət öz şəxsi bilik və bacarığı sayəsində irəlilədiyi vəzifə pillələrində artıq xalqının gələcək mövcudluğu üçün yeni şərtlərin yaradılmasının özü üçün milli vəzifə olduğunu qətiləşdirib. Təsadüfi deyil ki, bu gün bir çox tarixçi və siyasətçilər haqlı olaraq qeyd edirlər ki, Azərbaycan xalqının XX əsrdəki milli qurtuluşu, əslində, 1969-cu il iyulun 14-dən başlanır. İqtisadi çətinliklərlə müşayiət olunan həmin dövr həm də yeraltı və yerüstü sərvətləri ilə zəngin olan Azərbaycanın öz sahib olduqlarından yararlana bilməməsi, ittifaq tərkibində olan digər respublikalardan ən geridə qalması ilə fərqlənirdi. Dahi şəxsiyyət o dövrü belə xarakterizə edirdi: ***“Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı, bütövlükdə, dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi”.***

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilib. Ulu Öndərin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikamızda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıb. 1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal edib, İkinci Dünya müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Buna görə də Ulu Öndər Heydər Əliyev SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldıraraq Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail oldu. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Xankəndidə, Gəncədə, Mingəçevirdə, Lənkəranda bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verildi. 1970-1982-ci illərdə Azərbaycandakı fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki illərdə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparıldı, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlandı.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ən diqqətçəkən məqamlardan biri də respublikamızda milli kadrların yetişdirilməsi ilə bağlı atdığı uzaqgörən, mütərəqqi addımlar idi. Ulu Öndər gözəl bilirdi ki, bir ölkənin inkişafı savadlı, bilikli kadrlar olmadan mümkün deyil. 1969-cu ilə qədər Azərbaycanda rəhbər vəzifələrin böyük əksəriyyətində qeyri-azərbaycanlılar təmsil olunurdu. Hətta respublika üçün mühüm əhəmiyyət daşıyan strateji strukturlarda belə səlahiyyət sahiblərinin çoxu başqa millətlərin nümayəndələri idi. Ulu Öndərin Azərbaycanda savadlılığın artırılması yolunda gördüyü böyük işlərin nəticəsi idi ki, əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli Liderin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. Onların əksəriyyəti bu gün ölkəmizin inkişafı üçün müxtəlif sahələrdə fəaliyyət göstərirlər.

Dahi şəxsiyyətin həmin dövrdə həyata keçirdiyi ən mühüm, zamanı qabaqlayan tədbirlərdən biri də respublikada milli hərbçi kadrların yetişdirilməsi istiqamətində qəbul etdiyi tarixi qərarlar və bunun nəticəsi olaraq Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması idi. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş sovetlər birliyində mövcud olan qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri idi. Təsadüfi deyil ki, Ümummilli Liderin həmin dövrlərdə başladığı hərbi quruculuq prosesi 20 il sonra müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin hərbçi kadrlarla təminatında böyük rol oynayıb. Bu mənada, 1969-1982-ci illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövrü respublikada milli dəyərlərin bərpası dövrü kimi tarixə yazılıb. Mənəvi dəyərlərin ana təməlini təşkil edən milli dilin varlığı və işləkliyi, ilk növbədə, milli şüurun, milli özünüdərkin formalaşmasında başlıca vasitədir. Aydın məsələdir ki, Ulu Öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün SSRİ məkanında rus dili hakim və rəsmi dil idi. Xalqımızın böyük oğlu tarixdə misligörünməmiş cəsarət, siyasi müdrikliklə Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirib. Dahi rəhbər yüksəksəviyyəli digər yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində çıxışlar edərək böyük hörmət və məhəbbət qazanıb. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə Konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olunub: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”. Həmin dövrdə belə bir addımın atılması böyük risk, cəsarət və qətiyyət tələb edirdi. Bütün çətinliklərə, təzyiqlərə baxmayaraq, Ümummilli Liderin uzaqgörən siyasəti və bu tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan ana dilimizin inkişafında böyük dönüş yaratdı.

XX əsrin 70-ci illərinə qədər Naxçıvan Muxtar Respublikasında da çox ağır sosial-iqtisadi vəziyyət hökm sürürdü. Hətta Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olub. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulub, onların icra müddəti müəyyənləşdirilib. Nəzərdə tutulan bütün vəzifələr vaxtında yerinə yetirilib, aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı üç dəfə artıb, Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb. Ulu Öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynayıb. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına qarşılaşdıqları çətinliklərə sinə gərə bilib. Dahi şəxsiyyətin yolunun uğurlu davamı nəticəsində bu gün Naxçıvan artıq enerji idxalçısından ixracatçısına çevrilib, ***“Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da “yaşıl enerji” zonasına çevirmək planlarımız var. Naxçıvanda su elektrik stansiyasının tikintisi üçün böyük potensial mövcuddur”***, – deyən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə muxtar respublikanın yaxın gələcəkdə “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən tədbirlər hazırda uğurla reallaşdırılır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmizin vətəndaş müharibəsinə, hərc-mərcliyə, xaos və anarxiyaya sürükləndiyi zamanda Ümummilli Liderimiz növbəti dəfə canı qədər sevdiyi Azərbaycanı xilas edib, onu əsl müstəqilliyinə qovuşdurub. 1990-1993-cü illərdə dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə səbəb olmaqla yanaşı, milli dövlətçiliyimizin qorunması və inkişaf etdirilməsi istiqamətində də mühüm tədbirlərin həyata keçirilməsi ilə tarixə yazılıb. Ümummilli Liderin uzaqgörən siyasətinin nəticəsi olaraq 70 ildən sonra üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılıb, muxtar respublikanın adından “Sovet Sosialist” sözləri çıxarılıb, Naxçıvan SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməyib, digər tərəfdən isə qonşu ölkələrlə münasibətlərə üstünlük verilib, xarici iqtisadi əlaqələr yaradılıb. 1993-cü ildə ölkəmiz milli dövlətçiliyimizin ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşəndə Ulu Öndər Heydər Əliyev yenidən xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdıb və bu qayıdış xalqımızın ən yeni tarixinə Vətənimiz Azərbaycanın xilası kimi yazılıb. Eyni zamanda bu qayıdış təbii sərvətlərimizdən səmərəli istifadə edilməsinə, ölkəmizin təlatümlər burulğanından xilas olmasına, müstəqilliyimizin qorunub saxlanmasına, vətəndaş müharibəsinin qarşısının alınmasına, möhkəm ictimai-siyasi sabitliyin yaradılmasına, Azərbaycanın iqtisadi inkişafına böyük təkan verən “Əsrin müqaviləsi”nin imzalanmasına, yerli və xarici investisiyaların cəlb edilməsinə, müasir istehsal müəssisələrinin qurulmasına, infrastrukturun yenilənməsinə şərait yaradıb. Dahi şəxsiyyətin fəaliyyəti təkcə iqtisadi sahələrlə məhdudlaşmayıb, milli dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində də böyük addımlar atılıb, tarixdə ilk dəfə olaraq dünya azərbaycanlılarının həmrəylik konsepsiyası hazırlanaraq uğurla həyata keçirilib. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi müstəqil Azərbaycanın daha da güclənməsinə səbəb olub. Bu güc Heydər Əliyev ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ölkəmizi daha da inkişaf etdirməyə, dünyada böyük nüfuz qazanmasına imkan verib. Dövlətimizin başçısı 2023-cü il mayın 10-da Ümummilli Liderimizin 100 illik yubileyi münasibətilə Şuşadan xalqa tarixi müraciətində Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövrünün siyasi-iqtisadi əhəmiyyətinə toxunaraq deyib: ***“Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə – 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər”.***

***“...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”***, – deyən dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət edib. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında böyük uğurlar qazanır. Bütün sahələr üzrə Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycan erməni işğalı altında olan torpaqlarımızı 2020-ci ildə 44 gün ərzində azad etdi, ərazi bütövlüyümüz təmin olundu. Zəfər Günü kimi tariximizə əbədi həkk olunan noyabrın 8-də Qarabağın gözü

*Ardı 3-cü səhifədə*

# Heydər Əliyev İli 2023

Şuşa şəhərinin işğaldan azad olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin müqəddəs arzularını gerçəkləşdirdi.

Heydər Əliyev yolu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişaf yoluna çıxarıb. Ötən il dekabrın 22-də ölkə başçısının Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin təsisindən sonra dövlət idarəçiliyində, vətəndaşla dövlət orqanları arasında qarşılıqlı fəaliyyətdə əhəmiyyətli dərəcədə irəliləyişlər əldə olunub, büdcə vəsaitlərindən səmərəli istifadə, bütün sahələrdə, proseslərdə şəffaflığın təmini istiqamətində tədbirlər həyata keçirilib. Ulu Öndər yoluna sədaqət nəticəsində bir zamanlar düşmən təcavüzü ilə, iqtisadi çətinliklərlə üz-üzə qalan Naxçıvan bu gün iqtisadi artım templərinə görə ölkəmizin lider regionuna çevrilib. Ölkə başçısının diqqət və qayğısı ilə muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda yeniləşən şəhər və kəndlərimiz, müasir infrastruktur, ən əsası sabitlik və təhlükəsizlik Naxçıvanı Azərbaycanın ən gözəl, cazibədar diyarına çevirib. Bu gün artıq 90-cı illərdən fərqli olaraq muxtar respublikanın sərhədləri müasir silahlarla təchiz olunan güclü ordumuz tərəfindən qorunur, torpaqlarımız etibarlı müdafiə olunur, azad sahibkarlıq, sərbəst biznes mühiti formalaşır, yeni istehsal və xidmət sahələri açılır, qardaş ölkə Türkiyənin yaxın bölgələri ilə ticarət əlaqələri genişlənir, hərtərəfli inkişaf hər addımda hiss olunur. Nəticədə, yeni iş yerləri yaranır, məskunlaşma artır, muxtar respublikaya gələn turistlərin sayı çoxalır. Ölkə Prezidentinin uzaqgörən siyasəti nəticəsində yaxın gələcəkdə Zəngəzur dəhlizi açılandan sonra Azərbaycanın digər regionları, qonşu ölkələrlə artacaq ticarət əlaqələri nəticəsində Naxçıvan mühüm nəqliyyat qovşağına çevriləcək, diyarın sosial-iqtisadi potensialı daha da güclənəcək. Bu baxımdan 2023-cü il iyunun 5-də ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası da muxtar respublikanın iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından, tranzit imkanlarından səmərəli istifadə olunmaqla mövcud çatışmazlıqların aradan qaldırılmasına, iqtisadi inkişafın sürətləndirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, maddi rifahın yüksəlməsinə təkan verəcək.

Məşhur bir aforizmdə deyilir ki, tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır! Bəli, ictimai-siyasi hadisələrin cərəyan etdiyi ayrı-ayrı dövrlərə, ölkələrin həyatına nəzər yetirəndə aydın olur ki, tarix dahi insanların ideya və əməllərinin üzərində yaranır, qərar tutur. Müxtəlif yerli, beynəlxalq tədbirlərlə 100 illik yubileyini möhtəşəm şəkildə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin müdrikliklə, əbədiyaşar ideyalarla zəngin ömür yolundan da məhz Azərbaycana əvəzolunmaz, qürurverici, fəxarətdoğurucu bir qərinəlik tarixi pay düşüb. 1969-cu ilin 14 iyulunda təməli qoyulan tarixi Ulu Öndər yolu xalqımızı milli qurtuluşa, inkişafa, tərəqqiyə, Böyük Zəfərə, siyasi, iqtisadi qələbələrə aparıb, ölkəmiz regionda dərin nüfuz, kəsərli söz sahibinə çevrilib. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"...Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək... Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək".***

**✍ Nail ƏSGƏROV**

## Ümummilli Liderə həsr olunan dəyirmi masa təşkil edilib



Naxçıvan Şəhər İcra Hakimiyyətində "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində böyük qürur və fərəh hissləri ilə qeyd olunmaqdadır. Bu münasibətlə keçirilən hər bir tədbir görkəmli dövlət xadiminin siyasi fəaliyyətinin və ideyalarının öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından olduqca önəmlidir. Vurğulanıb ki, məhz həmin tarixdən başlayaraq respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Ulu Öndərin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan sənayenin inkişaf etdiyi, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə dünyada tanınan diyara çevrilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən qısa vaxt sonra ölkəmizdə inkişaf və tərəqqi özünü göstərməyə başladı. Ulu Öndərin respublikamızın problemlərini dərindən bilməsi, onların həlli yollarını müəyyənləşdirməsi, ən başlıcası isə bütün xalqı vahid məqsəd ətrafında birləşdirməsi gələcək uğurlar və inkişaf üçün əsas oldu. Dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində (1969-1982) Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş aqrar-sənaye ölkəsinə çevirdi. Aqrar sahəsindəki uğurlar, xüsusilə üzümçülük və pambıqçılıq rekord səviyyədə inkişaf etdirildi. Respublikamız iqtisadi artım sürətinə görə orta ittifaq səviyyəsini üstələdi. Bu dövrdə orta və ali məktəblərin şəbəkəsi genişləndirildi, yüksəkixtisaslı kadr hazırlığına diqqət artırıldı, azərbaycanlı gənclər keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi. Cəmşid Naxçıvanski adına hərbi məktəb açıldı, gənclərin hərbi ixtisaslara yiyələnməsi təmin edildi. Mədəniyyətin inkişafına diqqət artırıldı, elm və mədəniyyət xadimlərinə yüksək fəxri adlar verildi.

Sonra akademik İsmayıl Hacıyev müəllifi olduğu "Heydər Əliyev siyasəti: tarix və müasirlik" monoqrafiyanı və "İrs" jurnalının nəşrləri seriyasından Naxçıvanın tarixi abidələrinə həsr olunmuş "Daş keşikçilər" adlı kitabını Naxçıvan Şəhər İcra Hakimiyyətinə hədiyyə edib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli çıxış edərək bildirib ki, Ulu Öndərin hər iki rəhbərlik dövrü məhz ölkəmizin qurtuluşu missiyası ilə başlanıb, sonrakı mərhələdə isə onun sürətli sosial-iqtisadi inkişafına və mədəni intibahına həsr olunub. Bu mənada, Azərbaycanın 1969-2003-cü illəri əhatə edən bir qərinəlik dövlətçilik tarixi Heydər Əliyev şəxsiyyəti ilə, onun milli qurtuluş fəlsəfəsi, quruculuq fəaliyyəti və ölkənin tərəqqisi naminə mübarizəsi ilə bağlıdır.

Yekunda Ulu Öndərin həyatı və fəaliyyəti ilə bağlı qısametrajlı filmi nümayiş olunub.

**✍ Aidə İBRAHİMOVA**

### *2023-cü il "Heydər Əliyev İli"dir*

## Ürəklərdə əbədi yaşamaq hüququ...




*Bu il xalqımız müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini böyük təntənə ilə qeyd edir. Bu dahi şəxsiyyət Azərbaycan xalqının yaddaşına müdrik lider, xilaskar, nəhəng quruculuq işlərinin müəllifi, həyat və fəaliyyəti ilə Vətənə sədaqətin, bağlılığın ali meyarını yaratmış böyük dühə kimi həkk olunub.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması müasir tariximizin həlledici anında, Azərbaycan xalqının gələcək taleyinin müəyyənləşdiyi mürəkkəb dövrdə müstəsna xidmətlər göstərmiş Ulu Öndərə dövlətimizin verdiyi yüksək qiymətdir. Keçdiyi zəngin həyat yolu, Vətən və xalq qarşısında misilsiz xidmətləri Heydər Əliyevi öz tarixi, milli dəyərləri, dövlətçilik ənənələri ilə fəxr edən azərbaycanlıların qürur mənbəyinə çevirmişdir.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə layiqli töhfələrdən biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Tərəqqi" medallı tanınmış jurnalist Muxtar Məmmədoğlunun Ümummilli Liderin xatirəsinə həsr etdiyi "O yaşayır, yaşayacaq ürəklərdə" kitabıdır. Kitab müəllifin "Şam ömrünün nağılı", "Mənim Naxçıvan dünyam", "Azadlığı istəmədik zərrə-zərrə" və "İllər, sizdə nəyim qaldı..." kitablarından sonra oxucularla beşinci görüşüdür.

Bu yaxınlarda çapdan çıxan "O yaşayır, yaşayacaq ürəklərdə" kitabı, demək olar ki, jurnalistin yaradıcılığının kuliminasiya nöqtəsidir. Kitabın redaktoru "Şərq qapısı" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultan, ön sözün müəllifi isə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlidir.

Elman Cəfərli ön sözdə çox doğru olaraq yazır: "Kitab öz peşəsinə sədaqəti və məsuliyyəti ilə insanda müsbət enerji yaradan yalnız peşəkar qələm sahibinin məqalələrindən, aldığı müsahibələrdən, təşkil və moderatorluq etdiyi dəyirmi masalarda səslənən fikirlərdən ibarət bir əsər deyil, eyni zamanda həm Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasətdə və hakimiyyətdə olduğu XX əsrin ikinci yarısının, XXI əsrin ilk illərinin – yarıməsrlik tarixi dövrün, həm də Ulu Öndərdən sonra ölkəmizdə davam etdirilən dövlətçilik siyasətinin özünəməxsus bir salnaməsidir. Əlbəttə, təbii olaraq daha çox Azərbaycanın ayrılmaz dilbər guşəsi Naxçıvanla, o cümlədən müəllifin məsul katib işlədiyi "Şərq qapısı" qəzeti ilə bağlı olan bu salnamə tarixi xronologiyadan çox, hadisələrin mahiyyəti üzrə obyektiv və əsaslandırılmış intellektual şərhi ilə diqqəti cəlb edir. Bu baxımdan da ziyalılığını da əsərində yüksək səviyyədə əks etdirməyə nail olan Muxtar Məmmədoğlu dövlətə, xalqa, Vətənə sevginin, sədaqətin Heydər Əliyev nümunəsindən ən yüksək səviyyədə qidalandığını nümayiş etdirir".

Kitab ön söz, giriş və dörd bölmədən ibarətdir. Kitabın "Esselər" bölməsində müəllif özünün dahi lider haqqında, Onun siyasi irsinin təbliği, dövlətçilik konsepsiyasının davam etdirilməsi haqqında müxtəlif dövrlərdə qələmə aldığı yazılarını, düşüncələrini təqdim edir. Muxtar müəllim haqlı olaraq görkəmli dövlət xadiminin siyasi irsini "Hər birimiz üçün oxunmalı və öyrənilməli olan bir elm" adlandırır. Çünki Azərbaycan cəmi 32 illik müstəqilliyə malik olmasına baxmayaraq, sürətlə inkişaf edərək iqtisadiyyatı və hərbi qüdrəti ilə dünyanın güclü dövlətləri sırasına yüksəldi. Ulu Öndərimizin qurduğu Azərbaycan dövləti son 20 ildə Prezident cənab İlham Əliyev tərəfindən dinamik inkişaf yoluna çıxarıldı, ölkəmizin mövqeləri dünyada daha da möhkəmləndirildi. İndi ölkəmiz beynəlxalq arenada söz sahibidir, Qafqaz regionunda heç bir iri layihə Azərbaycanın iştirakı olmadan həyata keçirilmir. Bəşərin fövqünə ucalmış fenomen dövlət xadimi kimi xalqın yaddaşında və Azərbaycan tarixində əbədi olaraq yaşayacaq Ümummilli Lider Heydər Əliyevin siyasi irsinə daxil olan, Onun xalqımıza miras qoyduğu hər bir ideya və əməl ayrı-ayrılıqda müstəqil Azərbaycan dövləti adlı nəhəng mirasın zərrələri, hissələridir. "Böyüklük, dahiliklə yoğrulmuş xarakter, şəxsiyyət həmişə böyük işlər görməklə formalaşıb. Bu böyüklük, dahilik hər şeydən əvvəl uca olan Azərbaycançılıq missiyasından yaranmışdı. Vətən adlı bir sevgidir Azərbaycançılıq – müəllifi isə dahi Heydər Əliyev. Bu dahi şəxsiyyət, bütövlükdə, Azərbaycançılıqdır", – deyən Muxtar Məmmədoğlu Ulu Öndər Heydər Əliyev obrazını bir də milli ideologiya müstəvisində təqdim edir. Ulu Öndərlə bağlı bir çox məqamların, o cümlədən dahi liderin ömür-gün yoldaşı Zərifə xanım, adını daşıyan təhsil (Heydər Əliyev adına Hərbi Lisey, Heydər Əliyev adına tam orta məktəb) və mədəniyyət (Heydər Əliyev Muzeyi, Nehrəm kəndindəki Heydər Əliyev Parkı) müəssisələri, əbədiyyətə qovuşduğu gün və sair haqqında esselər kitabın mənəvi dəyərini daha da artırmış, müəllifin Ümummilli Liderə olan səmimi sevgisini bütövlüyü ilə ortaya çıxarmışdır.

Kitabın "Dəyirmi masa, müsahibələr və söhbətlər" bölməsində – "Müstəqil Azərbaycanın siyasi zəfərlər epopeyası", "Heydər Əliyev mübarizliyi xalqımızı düşdüyü bəlalardan qurtardı", "Bugünkü nəsil bilməlidir ki, yaşadığımız firavan həyatı bizə Ümummilli Liderimiz bəxş edib", "Heydər Əliyev siyasətinin işığı Naxçıvanı nurlu sabahlara çıxarıb", "Şərq qapısı" qəzeti də görkəmli dövlət xadiminin ideyalarından bəhrələnir" adı altında yer alan məqalələrdə müəllif tanınmış ictimaiyyət nümayəndələri ilə dahi rəhbərin çoxcəhətli fəaliyyətinə işıq salır. Müəllif "Müstəqil Azərbaycanın siyasi zəfərlər epopeyası" başlıqlı məqaləsində yazır: "Heydər Əliyev İli" çərçivəsində muxtar respublikamızda keçirilən bir-birindən rəngarəng tədbirlər xalqımızın dahi oğluna və Ən Böyük Azərbaycanlıya dərin minnətdarlığın, ehtiram və məhəbbətin bariz ifadəsi kimi tariximizin yeni səhifəsini yazır. Biz də "Şərq qapısı" qəzeti olaraq həmişə mətbuata böyük dəyər vermiş və qayğı göstərmiş Ulu Öndərin mənalı həyat yolu və ictimai-siyasi fəaliyyətinin müxtəlif sahələri haqqında yazılar hazırlayaraq oxucularımıza təqdim edirik".

Muxtar Məmmədoğlu "Bu ünvanlar xalqımızın böyük oğlunun adını yaşadır" adı altında 3-cü bölmədə "Heydər Əliyev Muzeyində düşüncələr", "Dahi insanın adını daşıyan lisey", "Bu məktəbdə qazanılan uğurlar Ümummilli Liderimizə olan ehtiramın ifadəsidir", "Nehrəm kəndinin Heydər Parkı" adlı yazılarında dahi öndərin şərəflə adını daşıdığı təhsil ocaqlarının uğurlu nəticələrindən söhbət açır. Qədim Naxçıvan şəhərinin mərkəzində öz əzəməti ilə seçilən muzeyin Ulu Öndərin ictimai-siyasi fəaliyyətini öyrənmək üçün burada təşkil edilmiş guşələrinin hər biri tarixi salnamə təsiri bağışladığını qeyd edir.

Kitabın "Bu da bir ömürdü..." bölməsində müəllif "Başını uca tut, Azərbaycan!", "Böyük ana haqqında düşüncələr" adlı yazılarında Ulu Öndər Heydər Əliyev və akademik, Azərbaycan səhiyyə tarixinə qızıl hərflərlə adı yazılan Zərifə xanım Əliyeva haqqında hər bir Azərbaycan vətəndaşının ürəyindən keçən xoş sözləri dilə gətirir və bu şəxsiyyətlərə əbədi minnətdar olunacağını ifadə edir.

Yəqin ki, oxucular Elman Cəfərlinin bu fikri ilə də qeydsiz-şərtsiz razılaşarlar ki, Muxtar Məmmədoğlunun sayca beşinci kitabı olan "O yaşayır, yaşayacaq ürəklərdə" müəllifin əvvəlki kitabları kimi, oxunaqlı və cəlbedicidir. Lakin bu kitab məhz Ümummilli Liderə həsr olunduğu, "Heydər Əliyev İli"ndə, Böyük Liderin 100 illik yubileyinin keçirildiyi 2023-cü ildə oxuculara təqdim edildiyi üçün daha dəyərlidir.

*Müəllifin əsərdə görünən axtarıcılığı, zəhmətsevərliyi, əzmkarlığı və iradi keyfiyyəti bundan sonra da yeni-yeni yaradıcılıq uğurları qazanacağına hər bir oxucusunda ümid yaradır.*

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru***

2023-cü il "Heydər Əliyev İli"dir

## SSRİ Ali Sovetinin xalq deputatı:
## "Ulu Öndərlə görüşü həyatımın dönüş nöqtəsi, uğura gedən yolumun təməli adlandırıram"

*Kültəpə kəndi xalqımızın zəngin maddi irsinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin əvəzsiz tarixi eksponatına çevrilməklə yanaşı, həm də ölkəmizə ictimai-siyasi həyatda, elmi mühitdə mühüm rol oynayan bir sıra tanınmış şəxslər bəxş edib. Azərbaycanın Əməkdar mühəndisi Həsən Həsənov, kimya elmləri doktoru Bayram Rzayev, Əməkdar həkim İbrahim Ağayev, Əməkdar müəllim Məhəmməd Səfərəliyev kimi bu yurdda dünyaya göz açan neçə-neçə alim, müəllim, tibb işçisi işıqlı sabahlar, aydın gələcək naminə mühüm xidmətlər göstəriblər. Əməyi, zəhməti ilə ucalan kənd sakinlərindən biri də Tərlan İmamverdiyevadır. Maraqlı həyat hekayəsinə, zəngin tərcümeyi hala malik Tərlan xanım 1956-cı il avqustun 18-də anadan olub. Orta təhsilini Kərimbəyli kəndindəki 10 illik məktəbdə alıb. Atası Nəsib kişi Qərbi Azərbaycanın Dərələyəz mahalının Qışlaq kəndində yaşayıb.*



Ulu öndər Heydər Əliyev Babək rayonunun "Naxçıvan" sovxozunda. may 1980-ci il

Tərlan İmamverdiyevanın dediklərindən:

– Atam evin böyük uşağı idi, ondan balaca iki qardaşı, bir bacısı olub. Yaşadıqları Qışlaq kəndi dağlıq ərazidə yerləşdiyindən, əsasən, heyvandarlıqla, meyvəçiliklə məşğul imişlər. 1918-1920-ci illərdə ermənilərin yürütdüyü amansız deportasiya siyasəti, törətdikləri təxribatlar atamgilin ailəsindən də yan keçməyib. O zaman atamın 12-13 yaşı var imiş. Rəhmətlik deyirdi ki, 1918-ci ildə gəlmə ermənilər Qışlaq kəndinə hücum edərək azərbaycanlılara onları öldürəcəkləri ilə bağlı hədə-qorxu gəlməyə başlayıblar. Daha sonra kənd camaatını taxıl anbarına yığıb qapısını bağlayıblar. Babamgil də orada imiş. Atam məhəllədə yaşayan yerli erməni uşaqlarından eşidib ki, taxıl anbarına od vurub içəridəki bütün azərbaycanlıları yandıracaqlar. Əmimlə birgə elə keçməmək üçün macal tapıb qaçıblar evdən. Babam isə bir vasitə ilə qardaşını, 3-4 nəfər qohum-qonşunu axşamüstü taxıl anbarından çıxarmağa müvəffəq olub... Gəlmə ermənilər yerlilərdən daha azğın, daha qəddar idilər. Onlar qarşılarına çıxan hər kəsi, uşaq-böyük, qadın, yaşlı demədən kənddən çıxmağa məcbur edir, əkstəqdirdə öldürəcəkləri ilə hədələyirdilər. Heç kəs bir-birinə kömək edə bilmirdi, hərə öz canının hayında idi. Həmin vaxt erməni zülmündən qurtulmaq üçün nənəm də bibimi qucağına alıb evdən qaçaraq kəndin aşağısındakı "Doqquz donu" adlanan böyük bir kolluğunda gizlənib. Arxasınca gələn erməni həmin kolluğun kənarında hey dolaşıb axtarsa da, yerlərini müəyyən edə bilməyib. Yaxşı ki, 4-5 yaşında olan bibim səsini çıxarmayıb. Qaş qaralana yaxın erməni "qurda-quşa yem olsun" deyərək oradan uzaqlaşıb. Nənəm kolun içindən çıxaraq "Allaha təvəkkül, nə ola, ola" ümidi ilə düzəlib yola. Bir qədər getdikdən sonra yuxarı tərəfdən 4-5 nəfərin gəldiyini görüb, erməni olduqlarını zənn edərək bərk qorxu hissi keçirib. Xoşbəxtlikdən gələnlər babamgil imiş. Onlar gecə ilə Naxçıvana, Şərurun Dizə kəndinə pənah gətiriblər. Nənəmlə, bibim Dizədə 2-3 gün qalsalar da əvvəlcə aldıqları mənəvi və fiziki işgəncələrdən, qorxu hissindən dünyalarını dəyişiblər. Qışlaqdan çıxanda yolda əmilərimi bibiləri götürərək ümid yeri kimi İrana keçirib. Vay o keçməyə, buna əməlli-başlı peşman olublar. Farslar da ermənilər kimi pis rəftar edib onlarla. Oradan da məcbur qalıb Naxçıvana gəlməli olublar. Arazdan keçəndə əmilərimi su aparıb. Atamgillə gələnləri əvvəlcə Naxçıvan şəhərində uşaq evinə yığıblar, daha sonra isə varlı insanların himayəsində təsərrüfat işlərinə cəlb ediblər. Müəyyən zaman keçdikdən sonra Kültəpə kəndinə köçüb burada özlərinə daimi məskən salıblar...

Tərlan xanım deyir ki, uşaq vaxtından öz ev-eşiyindən didərgin salınan atası elə hey ulu babalarımızın "torpaq çəkir" ifadəsini xatırladar, öz doğma torpağı, ana yurdu Qərbi Azərbaycanda keçən çağlarını yada salarmış. Dediyinə görə ara sakitləşəndən sonra babası ilə birgə bu həsrəti, nisgili ovutmaq üçün gizli şəkildə Dərələyəzin Qışlaq kəndindəki evlərinə baş çəkiblər. Lakin gördükləri mənzərədən nəinki ürəklərinə su səpilib, qanları daha da qaralaraq əlacsız halda geri qayıdıblar. Şahidi olublar ki, nə bir zamanlar əzab-əziyyətlə qurub-yaratdıqları o ev qalıb, evdəki qiymətli əşyalar, nə də o bağça-bağ, hamısını mənfurlar oğurlayıb, mənimsəyiblər... Tərlan xanımın atası zəhmətkeş, əməksevər insan olub. Naxçıvanda yaşadığı illərdə öz nümunəvi təsərrüfat fəaliyyəti, ictimai işlərdəki fəallığı ilə hörmət-izzət qazanıb. 1945-1950-ci illərdə Nəsib kişi kolxoz sədri, yerli partiya təşkilatının sədri, ferma müdiri kimi vəzifələrdə çalışıb, 1980-ci il yanvarın 2-si isə dünyasını dəyişib...

1973-cü ilin sentyabrın 16-sı... Tərlanın əmək fəaliyyətində, həyat yollarında yaşıl işığın yandığı gün... 17 yaşlı gənc qızın heç vaxt unutmadığı, yaddaşına əbədilik qırmızı xətlə yazılan tarix... Həmin gündən "Naxçıvan" üzümçülük sovxozunda Mədət Nəsirovun başçılıq etdiyi briqadada işləməyə başlayır Tərlan. Rəfiqələri Zibayət, Səlfinaz, Gülarə, Zərxarə də bu briqada da çalışırlar. Əl-ələ verib çalışırlar ki, el-oba yanında üzləri ağ olsun, dövlətə bol məhsul versinlər. Briqadanın həm başçısı, həm də üzvləri verdikləri sözün həmişə sahibi olurlar, öhdəliklər artıqlaması ilə yerinə yetirilir. Tərlan da briqadaya işə düzələndən qısa zaman sonra ona bəslənilən ümidləri artıqlaması ilə doğrulda bilir...

Hər il payızın sonunda sovxozda ümumi iclas keçirilir, görülmüş işlər, götürülən öhdəliklər, ödənilən planlar müzakirə olunar, uğurlar, nöqsanlar qeyd edilərdi. "Naxçıvan" üzümçülük sovxozunun briqada başçısı Mədət Nəsirov qürurla danışar, xüsusən də Tərlanın adını böyük hörmət və fəxarətlə çəkərdi. Doğrudan da, Tərlan az vaxt ərzində böyük işlər görmüşdü. İclaslarda onun işgüzarlığından, yaradıcılığından, bacarığından ağızdolusu söhbət gedərdi. Buna hamı sevinərdi. Ən çox da atası Nəsib kişi. "Ot kökü üstə bitər", – deyiblər. Məhz Tərlanın belə zəhmətkeşliyi, əməksevərliyi, işə can yandırması, verilən tapşırığa məsuliyyətlə yanaşması şübhəsiz ki, atasından qalma genetik bir dəyər idi... Fasilələr ötüşür, illər ayları əvəzləyir, Tərlanın ömür təqviminə yeni-yeni nailiyyətlər yazılır. 1975-ci ildə Tərlanın işlədiyi "Naxçıvan" üzümçülük sovxozu Azərbaycan KP MK-nın, respublika Nazirlər Sovetinin, Azərbaycan Həmkarlar İttifaqları Şurasının və Azərbaycan LKGİ MK-nın "Qırmızı əmək bayrağı" ordeni ilə təltif olunur.

Tərlan İmamverdiyev qeyd edir ki, 1978-ci ildə rayon partiya komitəsinin rəhbərliyi tərəfindən böyük əmək sərf edən, işinə məsuliyyətlə, canla-başla yanaşan zəhmətkeşlərin xalq deputatı kimi namizədliyi irəli sürülürdü. O zaman Naxçıvandan bu ada layiq 15-20 nəfər seçib Bakıya göndərdilər ki, onlardan da biri mən idim. Üç dəfə bizi orada qəbul edib, haqqımızda geniş məlumat almaq məqsədilə sorğu-suala çəkdilər. Nəhayət, dekabr ayında dördüncü, əsas görüşümüz baş tutdu. O zaman Azərbaycan KP MK-nın birinci katibi olan dahi şəxsiyyət Heydər Əliyev bizi komitədə qəbul etdi. Böyük fəxrlə həyatımın dönüş nöqtəsi, uğura gedən yolumun təməli adlandırıram həmin görüşü... O günə kimi yalnız televiziyadan görür, radiodan eşidib bilirdim ki, Ulu Öndər gecəsini-gündüzünə qataraq insanların rifahı, xalqımızın gələcəyi, ölkəmizin inkişafı üçün yorulmadan çalışır, kəndli ilə kəndli, alimlə alim, şairlə şair dilində danışır. Bizi qəbul edəndə bu böyük insanın fədakarlığının, əzmkarlığının, səmimiyyətinin əyani şahidi oldum. Qəbul axşam saat $23^{00}$ radələrinə təsadüf etməsinə baxmayaraq, çox gümrah idi, əhvalında qətiyyən yorğunluq hiss olunmurdu. Görüşə girməzdən öncə, sözün həqiqi mənasında, həyəcandan dil-dodağım bir-birinə dolaşırdı. Nə deyəcəyimi, nə danışacağımı unutmuşdum. Ancaq dahi şəxsiyyət ilk andaca elə səmimi mühit yaratdı ki, tələş, həyəcan hissi qalmadı. Əsl kəndli, torpaq adamı dilində danışdı mənimlə, ailə vəziyyətimlə, təhsilimlə, sovxozun işi ilə yaxından maraqlandı. Ümummilli Lider mənim xalq deputatı kimi namizədliyimi dəstəklədi və dedi ki sən mütləq təhsil almalısan. Məhz Onun təşəbbüsü ilə 1980-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) Meyvə-tərəvəzçilik və üzümçülük fakültəsinə qəbul olaraq 1985-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirdim...



1979-cu il mart ayının 4-ü... SSRİ Ali Sovetinə növbəti seçkilərin keçirildiyi gün... Tərlan xanımın həyatında unudulmaz bir tarix... Ona yüksək etimad göstərilərək SSRİ Ali Sovetinə deputat seçilir. Bu 23 yaşlı zəhmətkeş qızın əməyinə verilən ən yüksək qiymət idi. Bir deputat kimi, o gündən Tərlanın məsuliyyəti, qayğıları daha da çoxalır. Ancaq bu onu qətiyyən ruhdan salmır, əksinə, işgüzarlığını xeyli artırır. Səsi tez-tez partiya komitəsinin iclaslarında eşidilir, jurnalistlərə müsahibələr verir, mavi ekranda çıxışlar edir. 1980-ci ilin may ayında "Naxçıvan" üzümçülük sovxozunun bütün işçi heyəti üçün olduqca əlamətdar hadisə baş verir. Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvana səfəri çərçivəsində Sirab kəndinə gedən yolun üzərində yerləşən tarla düşərgəsinə, üzümçülük sahəsinə də baş çəkərək zəhmətkeşlərlə görüş keçirir. Həmin görüşdə "Naxçıvan" üzümçülük sovxozunun direktoru, iqtisad elmləri namizədi Ramazan İsmaylov, o zaman Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi işləyən Kamran Rəhimov (1975-1983), 1958-ci ildən başlayaraq Naxçıvan MSSR Ali Sovetinin deputatı, 1963-cü ildən 1990-cı ilin mart ayınadək Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Sədri, eyni zamanda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Sədrinin müavini vəzifələrində çalışan, sonralar "SSRİ-ni dağıdan" azərbaycanlı qadın kimi tarixə düşən Səkinə Əliyeva da iştirak edir. Ulu Öndər bütün zəhmətkeşlərlə ətraflı danışıb, güzəranları, gündəlik qayğıları, iş şəraitləri ilə maraqlanır. SSRİ Ali Soveti deputatı dövlət döş nişanını sinəsində böyük fəxrlə daşıyan Tərlan İmamverdiyeva bir qədər kənarda dayanır. Dahi şəxsiyyət "briqadir, yaxına gəl" deyərək Tərlanı yanına çağırır, ailə vəziyyəti, sovxozun işi, üzümçülük sahəsi, öhdəlikləri, planları barədə soruşur. Həmin görüşdən stimul alan üzümçü Tərlan İmamverdiyevanın uğurları daha da çoxalır. Ulu Öndərin ona bəslədiyi ümidləri doğruldur. Belə ki, 1981-ci ilin fevral ayında "Naxçıvan" üzümçülük sovxozunun direktoru, iqtisad elmləri namizədi Ramazan İsmaylov Tərlanla söhbət əsnasında ona briqada başçısı olmağı təklif edir. Böyük işin məsuliyyətini bir qədər tərəddüddən sonra üzərinə götürən Tərlanın başçılığı ilə üzümçülük briqadası qısa müddətdə böyük uğurlara imza atır, qarşıya qoyulan tapşırıqları artıqlaması ilə həyata keçirir. Belə ki, həmin il öhdəsində olan 54 hektar məhsuldar bağdan 130 ton əvəzinə 511,5 ton yüksək keyfiyyətli üzüm toplayıb, qəbul məntəqəsinə yola salır.

Tərlan İmamverdiyeva vaxtilə SSRİ Ali Sovetinin xalq deputatı olmaqla yanaşı, Naxçıvan vilayət və Babək rayon komsomol komitələrinin büro üzvü seçilib, "Qırmızı əmək bayrağı" ordeni, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə də təltif olunub. Həmçinin zəhmətkeş qadın Azərbaycan komsomolunun XXXI Qurultayının nümayəndəsi olub, həmin qurultayda Azərbaycan LKGİ MK-nın üzvü seçilib. Bütün mərtəbələrə əməyi ilə qalxan Tərlan xanım o illəri ən əziz xatirə kimi yaddaşında yaşadır, Ulu Öndərin ona göstərdiyi diqqəti, qayğını daim minnətdarlıq hissi ilə xatırlayır, dahi şəxsiyyətin layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə dünyaya göz açdığı Kültəpə kəndində yaradılan müasir şəraitdən, insanların güzəranından, yaşayış yerində arxeoloji qazıntıların aparılmasından, tarixi irsimizin yaşadılmasından könüldolusu razılıq edir. Əməyi güllər açan 67 yaşlı bu əmək qəhrəmanının zəngin, mənalı həyatından bugünkü gənclərimizin də örnək, nümunə götürməsi diləyi ilə...

✍ **Nail ƏSGƏROV**

## Ordubad şəhərinin *"Qoruq şəhər"* statusu ilə bağlı iclas keçirilib

Ordubad şəhərinin "Qoruq şəhər" statusunu özündə ehtiva edən məsələlər və mövcud imkanlar barədə iclas keçirilib. İclasda



Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev, Nazirlər Kabinetinin şöbə müdiri Nihad Qurbanov, Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov, rayonun müxtəlif sənət sahibləri və kulinariya ilə məşğul olan vətəndaşlar iştirak edib.

Şəhərin qoruq irsinin qorunması, qədim küçələri olan Dədə Qorqud, Anbaras və Sərşəhər küçələrində mikrosahibkarlığın inkişafına imkan yaradacaq kiçik xidmət subyektlərinin, rayona gələn turistlərin rahat hərəkətinin təşkil edilməsi və onlara Ordubad mətbəxinin tanıdılması, lazız təamlarının satışının təşkil edilməsi, ailə təsərrüfatçılarının yetişdirdikləri meyvə məhsullarının, mürəbbə və kompot növlərinin, dərman bitkilərindən hazırlanan ekstraktların, eləcə də qədim sənət növlərinin dirçəldilməsi məsələləri barədə qarşılıqlı fikir mübadilələri aparılıb. Vətəndaşlara qədim küçələrdə olan köhnə və istifadəsiz dövlət binalarının, boş yerlərin şəkil və sxemləri göstərilib, kiçik xidmət subyektlərinin qurulması üçün şəraitin yaradılması nəzərə çatdırılıb.

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş *"Yay məktəbi"*nə start verilib

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikasının Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi



ilə əlaqədar olaraq xidmətin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan tələbələrin "Yay məktəbi"nə start verilib.

Tədbirdə xidmət rəisinin müavini Nurlan Fətəliyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin ölkəmizdə əmlak və torpaq idarəçiliyinin inkişafı sahəsindəki əvəzsiz xidmətlərindən bəhs edib.

Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev Ümummilli Liderimizin gəncliyə diqqət və qayğısından danışıb, keçirilən "Yay məktəbi"nin tələbələrin bilik və bacarıqlarının artırılmasına mühüm töhfə verəcəyini qeyd edib.

İki gün müddətində davam edəcək "Yay məktəbi"nin birinci günündə daşınmaz əmlakın inventarlaşdırılması və qeydiyyatı, plan və xəritələrin hazırlanması ilə bağlı məşğələlər keçiriləcək, praktiki vərdişlərin artırılması məqsədilə komanda yarışları, ikinci günündə isə müasir geodeziya avadanlıqları ilə ölçmə işlərinin yerinə yetirilməsi, ölçü materiallarının emalı, xəritələrin hazırlanması ilə bağlı təlimlərin və qrup işlərinin təşkili nəzərdə tutulub.

## Hesablama Palatası bu il Naxçıvanla bağlı 7 auditin nəticələrini güc strukturlarına göndərib

Bu ilin I yarısında Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin iş planı üzrə keçirilmiş nəzarət tədbirləri də nəzərə alınmaqla baxılan dövrdə həm əvvəlki ilin, həm də 2023-cü ilin iş planına əsasən keçirilmiş 7 auditin nəticələri ilə bağlı materiallar hüquq-mühafizə və prokurorluq orqanlarına göndərilib.

Hesabat ilinin iş planı üzrə keçirilmiş auditlərin nəticələrinə əsasən hüquq-mühafizə və prokurorluq orqanlarına təqdim edilmiş materiallar üzrə ehtimal olunan hüquq pozuntularının məbləği, təxminən, 23,2 milyon manat olub.

**Xəbərlər şöbəsi**

2023-cü il “Heydər Əliyev İli”dir

# Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə

## (1969-1982-ci illər) Şərur rayonunun sosial-iqtisadi inkişafı

*Azərbaycan KP MK-nın 14 iyul 1969-cu il plenumunda görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə ölkənin ictimai-siyasi həyatında sosial-iqtisadi inkişafında dönüş nöqtəsinin təməli qoyuldu. Həmin gündən az sonra – 1969-cu il avqustun 5-də keçirilən Azərbaycan KP MK-nın plenumunda əvvəlki illərdə baş vermiş nöqsanlar tənqid olundu və bu plenum dönüş plenumu kimi yaddaşlarda qaldı. Çox qısa bir müddətdə yeni inkişaf strategiyası üzrə proqramlar işlənib hazırlandı və onların yerinə yetirilməsi yolları müəyyənləşdirildi.*

**Ulu Öndər Heydər ƏLİYEV:** *Şərur rayonunun imkanları böyükdür... Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatını daha da inkişaf etdirəsiniz.*

1970-1985-ci illərdə respublikanın sosial-iqtisadi inkişafını təmin etmək və daha da sürətləndirmək məqsədilə 2 mərhələdə həyata keçiriləcək tədbirlər planı qəbul edildi. İlk növbədə, 1970-1975-ci illəri əhatə edən birinci mərhələdə iqtisadiyyatın bütün sahələrində mövcud potensialı hərəkətə gətirmək və bütövlükdə, sosial-iqtisadi inkişafı sürətləndirmək vəzifəsi qarşıya qoyuldu. 1976-1985-ci illəri əhatə edən 2-ci mərhələdə iqtisadiyyatın bütün sahələrini səmərəli və kompleks inkişaf etdirmək, strukturunda Azərbaycanın ittifaq əmək bölgüsündə geniş iştirakını təmin edəcək sahələrin üstün inkişafı istiqamətində dəyişikliklər edilməsi, neft maşınqayırması və neft emalının yeni texniki baza üzərinə keçirilməsi və istehsal olunan məhsulun keyfiyyətinin yüksəlməsi strateji vəzifə olaraq gündəmə gətirildi.

Həmin illərdə Ulu Öndər Heydər Əliyevin həyata keçirməyə başladığı geniş islahatlar proqramı Şərur rayonundan da yan keçməmişdir. O dövrdə bu bölgənin iqtisadiyyatının inkişaf etdirilməsində vacib sahələrdən biri tütünçülük olmuş və burada tütün əkilən sahələr xeyli genişləndirilmişdir. Lakin bir sıra səbəblər üzündən bölgədə tütün istehsalı və dövlətə satışı planını tam yerinə yetirmək mümkün olmamışdır.

Doqquzuncu beşillikdə rayonda kənd təsərrüfatının inkişafı öz çoxşaxəliyi ilə diqqəti cəlb edir. Həmin illərdəki mətbuat səhifələrində bu barədə məlumatlar əks olunurdu. “Şərq qapısı” qəzeti 1976-cı il 15 fevral tarixli sayında yazırdı: “1971-1975-ci illərdə Naxçıvan və Şərur rayonlarının kənd əməkçiləri taxıl istehsalında və dövlətə satışında fərqlənmişlər”. Rəqəmləri müqayisə etdikdə taxılçılıqda muxtar respublika üzrə taxılın hər hektarından məhsuldarlığın ən yüksək səviyyəsinin Şərur rayonunda əldə edildiyi məlum olur. Belə ki, 1980-ci ildə taxılın hər hektarından məhsuldarlıq bu bölgə üzrə 30,7 sentner təşkil etmişdir.

Qeyd edək ki, Sov.İKP-nin XXIV Qurultayının qərarlarında qarşıya qoyulan mühüm vəzifələrdən biri də heyvandarlığın inkişaf etdirilməsi məsələsi idi. Buna görə rayonun maldarlığın inkişafına dair planlarının artırılması nəzərdə tutulmuşdu. “Şərq qapısı” qəzetinin 1976-cı il 29 aprel tarixli sayındakı məlumatdan aydın olur ki, rayonda hər inəkdən 1,061 kiloqram süd sağılmışdır ki, bu da 1973-cü ilin müvafiq dövrünə nisbətən bölgə üzrə 157 kiloqram çoxdur. Onuncu beşillik illərində rayonda süd istehsalı sahəsində yüksək göstəricilər əldə edən təsərrüfatların və əmək adamlarının sayı bir qədər də artmışdır.

Rayonun üzümçüləri də 1974-cü ildə üzümçülük sahəsində daha parlaq qələbələr qazanaraq dövlətə üzüm satışı planlarını artıqlaması ilə yerinə yetirmişlər. Həmin il dövlətə 23624 ton üzüm satılıb. Bu dövrdə rayonda üzümçülüyün ixtisaslaşdırılması və intensivləşdirilməsi sahəsində geniş miqyasda işlər görülüb.





Tarixçi-alim X.Hüseynov yazır: “Onuncu beşillikdə muxtar respublikanın əksər bölgələrində, o cümlədən Şərur rayonunda da bağçılıq və meyvəçilik sahəsində məhsuldarlığı artırmaq, intensiv bağçılığı inkişaf etdirmək və ixtisaslaşdırmaq üçün 1979-cu ildə rayonda 3 yeni meyvəçilik sovxozu təşkil olunmuşdu. Həmin sovxozlarda 725 hektar palmet bağları salınmışdı. Rayonda bağların hər hektarından 5,5 sentner məhsul əldə edilmişdir”.

XX yüzilliyin 70-80-ci illərində ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunda da mühüm dəyişikliklər baş vermiş, iri sənaye sahələri yaradılmış, bəzi müəssisələr yenidən qurulmuşdur. 1978-ci ildə rayonda istehsal damazlıq birliyi yaradılmışdır.

Onuncu beşillikdə Şərur rayonunda müxtəlif irriqasiya-meliorasiya işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Həmin illərdə Arpaçay Su Anbarı tikintisinin, onun sağ və sol sahil kanallarının başa çatdırılması planlaşdırılırdı.

Ötən əsrin 60-70-ci illərində muxtar respublikanın kolxozlarının torpaqları Şərur rayonu üzrə ümumi ərazinin 55,7 faizini təşkil edirdi. Həmin illərdə muxtar respublikada kənd təsərrüfatına yararlı olan 148149 hektar torpaq sahəsinin 37699 hektarı Şərurda yerləşmişdi. Regionun torpaq sahələri həm də öz münbitliyi və məhsuldarlığı ilə fərqlənirdi.

Rayonun kənd təsərrüfatının su ilə təchiz olunması məsələsini həll etmək məqsədilə Şərqi Arpaçay üzərində 30 milyon kubmetr həcmində su tutan “Dəvə ölən” Su Anbarını inşa etmək, Fərhad arxı baş kanalını uzatmaq, Arazdəyən kanalını çəkmək, Arxaşan kanalını bərpa etmək və yenidən qurmaq və digər su təsərrüfatı tədbirlərini yaxın gələcəkdə həyata keçirmək nəzərdə tutulmuşdu. Həmin tədbirlərin ən geci 10-12 il müddətində həyata keçirilərək reallaşdırılması planlaşdırılmışdı. Eyni zamanda nəzərdə tutulmuşdu ki, “Qıvraq”, “Qarabağlar”, “Şahtaxtı” və başqa su anbarları tikilsin, 1940-cı ildə tikilən Arazdəyən-Şərur kanalı təmir edilsin, Sədərək kəndində artezian quyusu qazılsın.

Həmin illərdə rayonda arx və kanalların çəkilişinə, torpaqların meliorasiya cəhətdən yaxşılaşdırılmasına dövlət tərəfindən yönəldilən vəsait yetərincə artırılmışdı. Bunun nəticəsində bölgədə Yuxarı Sovxoz kanalı çəkildi və bu kanalın suyu ilə yüzlərlə hektar xam torpaq suvarıldı. Sədərək kanalının çəkilməsi, ümumilikdə, muxtar respublikanın su ehtiyatının artmasını təmin etdi. Qeyd edək ki, Sədərək həmin illərdə Şərur rayonunun tərkibinə daxil idi.

1971-1975-ci illərdə Arpaçay su qovşağının tikintisinə 11,4 milyon manatdan çox vəsait xərclənmişdir. Bu tikintinin sürətləndirilməsi və tezliklə başa çatdırılması üçün müxtəlif tədbirlər həyata keçirilmiş, xeyli işçi qüvvəsi səfərbərliyə alınmışdı.

1974-cü ilin oktyabrında muxtar respublikaya gələn Ulu Öndər Heydər Əliyev Arpaçay su qovşağının tikintisinə baş çəkmiş, tikintinin tezliklə yekunlaşdırılması üçün tapşırıqlar vermişdi. Araz su qovşağında da olan Ümummilli Liderimiz Naxçıvançay üzərində Vayxır dəryaçasının yaradılması və Əlincəçay suvarma sisteminin qurulması haqqında da planların olduğunu nəzərə çatdırmışdı.

1978-ci ilin oktyabrında yenidən muxtar respublikaya gələn Ulu Öndər Azərbaycanın müvafiq qurumları qarşısında 1979-cu ilin mayınadək Arpaçay kompleksinin tikintisində yarımçıq qalmış işlərin başa çatdırılması və kompleksin istifadəyə verilməsi, aşağı su buraxıcı qurğunun və sağ sahil kanalının çəkilişinə başlanması kimi yeni vəzifələr qoydu. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin partiya təsərrüfat fəalları ilə keçirdiyi görüşdən dərhal sonra yenidən Arpaçay dəryaçasına gələrək tikintinin tezliklə istifadəyə verilməsi ilə bağlı öz tapşırıq və tövsiyələrini verməsi bu tikinti kompleksinin Şərur rayonu üçün çox mühüm əhəmiyyət kəsb etdiyini göstərirdi. 1980-ci ilin mayında Ulu Öndər növbəti dəfə Arpaçay dəryaçasının vəziyyəti ilə maraqlanmış, su obyektlərinin tikintisini sürətləndirməyin mühüm vəzifə olduğunu vurğulamışdı.



O illərdə rayonda sənayedə də əsaslı dönüş baş verdi. Həmin illərdə sənaye sahəsi üzrə ixtisaslı mütəxəssislərin sayı artırılmağa başladı. Bu illərdə Şahtaxtı (Şahtaxtı da o illərdə Şərur rayonunun tərkibinə daxil idi) daş karxanası tikilib istifadəyə verilmiş, Şərur konserv zavodunun, yeni dəmir-beton məmulatı müəssisələrinin tikintisinin başa çatdırılması həyata keçirilmişdi.

Gümüşlü qurğuşun-sink dağ-mədən sənaye müəssisəsinin ötən əsrin 70-80-ci illərində də nailiyyətləri olmuşdur. 1968-ci ildən başlayaraq 1973-cü ilədək beş il müddətində Gümüşlü dağ mədənində təkmilləşdirilmiş texnologiya tətbiq edilmişdir. Bu texnologiyanın tətbiqindən sonra qurğuşun-sink istehsalı daha da artırılmış və minlərlə ton filiz istehsal edilmişdi. Bu nailiyyətlər sonrakı illərdə də davam etmişdir.

Bölgənin çoxsahəli sənaye sahələrindən biri də yeyinti sənayesidir. 1970-1985-ci illərdə rayonda şərab zavodları tikilib istifadəyə verilmişdir. 1973-cü ildə Sədərək (Sədərək həmin illərdə Şərur rayonun tərkibinə daxil idi) İbadulla kəndi Dimitrov adına üzümçülük sovxozlarında hər birinin istehsal gücü 10 min ton olan şərab zavodları tikilib istifadəyə verildi, mövcud müəssisələrdə yenidənqurma işləri aparıldı.

Rayonun Şahtaxtı kəndində istehsal olunan yüksəkkeyfiyyətli travertin üzlük piltələri metro, kinoteatr, inzibati binaların tikintisində və sair yerlərdə işlədilirdi. Bu keyfiyyətli və qiymətli tikinti sənaye materialı təkcə Azərbaycanın müxtəlif bölgələrinə deyil, həm də keçmiş SSRİ-nin bir sıra respublikalarına və xarici ölkələrə göndərilirdi. Misal üçün təkcə 1983-cü ildə istehsal olunmuş 27,6 min kubmetr travertinin 10 min kubmetri Moskva, Leninqrad, Minsk, Daşkənd və Soçi şəhərlərinə ixrac edilmişdi. 1985-ci ildə 47,7 kubmetr istehsal olunmaqla, həmin şəhərlərə travertin bloku ixracı daha da artmışdı. 80-ci illərin II yarısında bu tikinti materialının istehsalı daha artırılmışdı ki, bu da 70-ci illərdə həyata keçirilən tədbirlərin sayəsində mümkün olmuşdur.

*Ulu Öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Bu gün də mövcud iqtidarın xalqla monolit birliyi nəticəsində Ümummilli Liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə Ulu Öndərin layiqli varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz cənab İlham Əliyevdir. Bunu da qeyd edək ki, dövlət başçısının 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” Ulu Öndərin ölkəmizə birinci rəhbərliyi dövründə təməlini qoyduğu inkişaf strategiyasının müasir dövrümüzdə daha da geniş vüsət alacağını hədəfləndirir. Təbii ki, Şərur rayonu da bundan xeyli bəhrələnəcək.*

**Yaşar RƏHİMOV**
***tarix üzrə fəlsəfə doktoru***

## Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində işə qəbulla bağlı müsabiqə elan edilib

Müsabiqənin keçirilməsində məqsəd Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin aparatında, Naxçıvan şəhər və ərazi vergilər idarələrində yerləşən strukturların kadr ehtiyacını qarşılamaq, eyni zamanda potensiallı gəncləri işə cəlb etməkdir. İşə qəbul Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”yə müvafiq qaydada müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanı və müsahibədən ibarət olacaq.

Müsabiqədə iştirak etmək istəyən namizədlər 13 iyul 2023-cü il tarixdən 13 avqust 2023-cü il tarixədək İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəsmi internet səhifələrində *(www.taxes.gov.az və www.vergi.nakhchivan.az)* yerləşdirilmiş elanda göstərilən elektron ərizə formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 9 sentyabr 2023-cü il tarixdə Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunacaq. İmtahandan uğurla keçən namizədlərə müsahibə mərhələsi barədə əlavə məlumat veriləcək.

Qeyd olunmalıdır ki, yüksək intellektə, məntiqi düşünmə bacarığına və geniş dünyagörüşünə malik gənclərin müəyyən edilərək dövlət vergi orqanlarına işə qəbul olunması məqsədilə ötən il müsabiqə qaydalarında edilmiş bir sıra dəyişikliklər bu müsabiqə zamanı da əsas götürüləcək. Belə ki, hüquq sahəsi istisna olmaqla digər sahələr üzrə namizədlər üçün ixtisas məhdudiyyəti götürülüb və qanunvericiliklə müəyyən edilmiş tələblər çərçivəsində ali təhsilə malik bütün vətəndaşların müsabiqədə iştirakına açıq və bərabər imkanlar yaradılıb. Bundan əlavə, əvvəlki illərdən fərqli olaraq bütün ixtisaslar üzrə test imtahanının sual bankından vergilər və vergitutma üzrə suallar çıxarılıb, əvəzində namizədlərin dünyagörüşünü, məntiqi düşüncə səviyyəsini və bacarığını ölçən testlərdən ibarət yeni sual bazası hazırlanıb.

Bu mərhələdə namizədlərə təqdim olunacaq sualları özündə əks etdirən ədəbiyyat siyahısı və sual nümunələri Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilib *(https://bit.ly/edebiyyat)*.

Müsabiqə başa çatdıqdan sonra nəticələr İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsi vasitəsilə ictimaiyyətə elan ediləcək. Müsabiqənin hər iki mərhələsindən uğurla keçən namizədlər kadr ehtiyatına daxil olunaraq həmin dövr üzrə vakant vəzifələrə təyin ediləcəklər. Vakant vəzifələrə təyin olunmayan namizədlərin kadr ehtiyatında saxlanılma müddəti 2 ildir.

Dövlət Vergi Xidmətinə işə qəbulla bağlı müsabiqə elanı ilə aşağıdakı link vasitəsilə daha ətraflı tanış ola bilərsiz: *(https://bit.ly/vergielan)*.

**Ulu Öndər Heydər ƏLİYEV:** *Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir.*





**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz Ulu Öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk.*














ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 424